***Zümrüd MƏNSİMOVA***
*AMEA-nın Rəyasət Heyəti*
*Filologiya üzrə fəlsəfə doktoru,dosent*
*zumrudibrahimqizi@gmail.com*
*ORCID: 0000-0002-8529-9018*
*https://doi.org/10.59849/2309-7922.2026.1.181*

# AZƏRBAYCAN TOYLARINDA ƏCDAD KULTUNUN AĞSAQQAL PARADİQMASI (ŞİMAL BÖLGƏSİNİN MATERİALLARI ƏSASINDA)

**Xülasə**

Məqalədə əsasən Azərbaycanın şimal bölgəsi toy adətlərində ağsaqqalın rolu və mövqeyindən bəhs olunmuşdur. Araşdırılmışdır ki, elin və xalqın seçilmiş nümayəndəsi olan ağsaqqalın sözü hər kəs üçün qanun hesab olunmuşdur. Ağsaqqalın mərasimin, daha dəqiq desək, toyun ilk mərhələsindən başlayaraq son mərhələsinə kimi nizama salma, tapşırıqlar vermə, oyun üstündə gənclər arasında yaranan savaşı kəsmə, öyüd və xeyir-dua vermə kimi əvəzsiz xidmətləri olduğu göstərilmişdir. Məqalədə ağsaqqalıq institutunu formalaşdıran amillərin məhz elin və xalqın tarixi keçmişinə, adət-ənənələrə, milli dəyərlərimizə olan möhkəm bağlı olduğu bildirilir. Məlum olur ki, ağsaqqal xalqın həm şad, həm də kədərli anında onların yanında olan, doğru yol göstərən müdrik qoca arxetipinin nümayəndəsidir.

**Açar sözlər**: əcdad kultu, ağsaqqal, toy mərasimi, böyüklərə hörmət, adət-ənənə, milli dəyərlər; müdrik qoca arxetipi.

***Зумруд МАНСИМОВА***

## КУЛЬТ ПРЕДКОВ И ПАРАДИГМА АКСАКАЛА (СТАРЕЙШИНЫ) В АЗЕРБАЙДЖАНСКИХ СВАДЬБАХ (НА ОСНОВЕ МАТЕРИАЛОВ СЕВЕРНОГО РЕГИОНА)

**Резюме**

В статье рассматриваются роль и позицию аксакала (старейшины) в свадебных обычаях северного региона Азербайджана. В ходе исследования установлено, что слово аксакала – избранного представителя общины и народа - воспринималось как закон для всех. Показано, что начиная с первого этапа свадебного обряда и до его завершения аксакал выполнял незаменимые функции: обеспечивал порядок проведения церемонии, давал поручения, предотвращал конфликты между молодыми людьми во время игр, наставлял и произносил благословения. В статье отмечается, что факторы, формирующие институт аксакальства (старейшинства), тесно связаны с историческим прошлым общины и народа, с их обычаями и традициями, а также с национальными ценностями. Выясняется, что аксакал является пред-

ставителем архетипа мудрого старца, который находится рядом с народом как в радостные, так и в скорбные моменты, указывая им верный путь.

**Ключевые слова:** культ предков, аксакал (старейшина), свадебный обряд, уважение к старшим, обычаи и традиции, национальные ценности, архетип мудрого старца.

***Zumrud MANSIMOVA***

**THE CULT OF ANCESTORS AND THE PARADIGM OF THE AKSAKAL (ELDER) IN AZERBAIJANI WEDDINGS (BASED ON MATERIALS FROM THE NORTHERN REGION)**

**Summary**

The article primarily examines the role and position of the aksakal (elder) in the wedding customs of the northern region of Azerbaijan. The study shows that the word of the aksakal - a chosen representative of the community and the people - was regarded as binding for everyone. It is demonstrated that, from the first stage of the wedding ritual to its completion, the aksakal performed indispensable functions: maintaining order during the ceremony, giving directives, preventing conflicts among young people during games, offering guidance and pronouncing blessings.

The article notes that the factors shaping the institution of aksakals (eldership) are closely connected to the historical past of the community and the people, their customs and traditions, as well as national values. It is revealed that the aksakal represents the archetype of the wise old man, who stands by the people in both joyful and sorrowful moments, guiding them along the right path.

**Keywords:** ancestor cult, aksakal (elder), wedding ritual, respect for elders, customs and traditions, national values; archetype of the wise old man.

**Giriş:** Tarixən Azərbaycanın bütün bölgələrində toylarda apsaqqal elin, nəslin seçilmiş nümayəndəsi kimi xüsusi önəm kəsb etmişdir. Ona yalnız yaşlı insan olduğuna, saçının ağlığına görə hörmət edilmirdi, həm də həyat təcrübəsi, müdrikliyi və ədalətli mövqeyi ilə seçilən, cəmiyyətdə sözü keçən şəxs kimi də yüksək dəyər verilmişdir. Ağsaqqalın toy mərasimlərində iştirakı xalqın əsrlər boyu formalaşmış adət-ənənələrinin qorunub saxlanmasına xidmət edir. Ağsaqqal bir kəlməsi ilə toylarda gənclər arasındakı savaşa son qoymuşdur. Əgər bir elin, nəslin ağsaqqalı varsa, əgər bir eldə, nəsildə böyük sözü eşidilirsə, deməli, orada Vətən torpağı basılmazdır deyə düşünülmüşdür. Vətən, doğma yurd, oba-el kəlmələri olan yerdə sözsüz ki, ağsaqqal kəlamı da əvəzsiz yerə malikdir. Bu müqəddəs kəlmələr bir-birindən heç də ayrı götürülməmişdir. Ağsaqqal sözünün kəsəri və qüdrəti, təbii ki, onun əcdad kultunun paradiqmatik göstəricisi olması ilə birbaşa bağlı idi.

Biz ağsaqqal sözünün kəsərli olmasına "Oğuz xaqan", "Kitabi-Dədə Qorqud" dastanında çox təsadüf edirik.

Dastanda anaya məhəbbət, ağsaqqala ehtiram, gənclərə güvənc, dosta etibar, vətən, xalq, yurd sevgisi əsərin insanlıq, vətənpərvərlik və əcdad ruhlarına inam abidəsi olduğunu göstərir. On iki boydan ibarət "Kitabi-Dədə Qorqud"da dastanın düzücüsü, söyləyəni kimi göstərilən Dədə Qorqud müdrik el ağsaqqalı, elin ozanı, yolgöstərənidir. Dastanın tədqiqatçılarından Şamil Cəmşidov yazır: "... tarix kitablarından xalq rəvayətlərinə qədər bütün mənbələrdə Dədə Qorqudun ictimai mövqeyindən danışılarkən o, mötəbər ata, din xadimi kimi göstərilir. Hətta övliya, müqəddəs şəxs dərəcəsinə qaldırılır" (2, s. 78).

Eləcə də "Dədə Qorqud"da elin ağsaqqalı Qorqud ata halallıq, ucalıq, böyüklük və müdriklik simvoludur. O boy boylayır, söz söyləyir, gənclərə tövsiyələr verir, igidlik göstərənə ad qoyur. Doğru yolunu azan Dəli Becana ağıl verir. Dədə Qorqud söylərmiş: "Oğul atadan görməyincə süfrə (yaymaz). Oğul atanın yetiridir". "Kitabi-Dədə Qorqud" dastanında belə bir fikir təlqin edilir ki, hər bir ailənin ağsaqqalı atadır, ataya hörmət etmək hamının borcudur, ata müqəddəsdir (4, s.12).

Ağsaqqal sözünün kəsəri nəinki xalq bayramlarında, eləcə də xalq inanclarında özünü mükəmməl şəkildə göstərir. Məsələn, səfərə çıxan adamın, ata ocağından gəlin köçən qızın arxasınca "Özünlə aydınlıq apar", "İşin avand olsun", "Üzün ağ olsun" və yaxud "keçilməz yolun su kimi aydın olsun" deyə su atarlar. Bunu icra edən məhz elin, nəslin sözü ötkəm olan ağsaqqalı, yaxud gün görmüş ağbirçəyidir. Ululardan gələn adətləri yaşadan, ritualları təşkil edən, ona rəhbərlik edən də məhz əcdadın nişanəsi sayılan ağsaqqal amilidir. Toydan əvvəlki mərhələlərdə, xüsusilə elçilik zamanı ağsaqqal əsas rol oynayır. O, iki ailə arasında vasitəçi olur, münasibətlərin hörmət və etibar üzərində qurulmasına kömək edir. Ağsaqqalın iştirakı razılaşmaların ciddiliyini və rəsmi xarakterini artırır, ailələr arasında qarşılıqlı anlayış yaradır. Azərbaycanın bütün bölgələrində qədimdən gələn bir adət vardır. Oğlan tərəfi qızı almaq üçün üç dəfə elçiliyə gəlir. Qız evi isə nəslin və elin ağsaqqalları ilə məsləhətləşmədən, götür-qoy etmədən oğlan evinə razılıq vermir və onları bir müddət get-gələ salır. Ağsaqqal toy mərasimində vasitəçi və etibar yaradan rolunda özünü göstərir. XX əsrin 90-cı illərinə kimi Zaqatala bölgəsində toy günü elin ağsaqqalının sözünə əsasən təyin olunurdu. May ayına "quraq ay" deyərdilər, o ayda toy etmək olmaz. Toylar daha çox bol-bərəkətli olduğu üçün payız ayında keçirilərdi. Maraqlıdır ki, Zəngilan və Qubadlı bölgələrinin toy mərasimlərində el-oba arasında yüksək nüfuza malik olan bir şəxs toyun ağsaqqalı seçilirdi. Toyun təşkili və gedişi ilə bağlı bütün əsas məsuliyyət də həmin ağsaqqalın üzərinə düşürdü. Qız və oğlan atası da ağsaqqalın dediyinə razılıq verirdi. Zaqatala-Balakən toylarında isə ağsaqqal vəkillə transformasiya olunur. Vəkil dediyimiz ağsaqqalın funksiyalarını icra edir. Qız vəkili və oğlan vəkili olur. Onların toy mərasiminin bütün pillələrində xüsusi çəkisi olur. Toyda vəkilsiz heç bir qərar verilmir. "Ağsaqqalsız yerdə oturma" kəlamı el arasında boşuna deyilməmişdir.

Zaqatala, Qax bölgələrində "Toya üş gün qalmış nigah mərasimi oluy. Ho mərasim digər mərasimlərdən diyim ki, çox fərkli olarax həm qız, həm də oğlan

öyündə keçiriliy. Oğlan və qız vəkili-yəni ağsaqqallık edən şəxs molla ilə öncə qız öyünə gediy, sora isə oğlan öyünə gəlif oğlanın razılığını alıylar. Qədimlərdə qız gedəcağı oğlanın yalnız adını biliydi. Toyun nikah mərasimində molla mərasimi apardığı müddətdə hər iki vəkil öz aralarında çəkişiylər. Hər iki vəkil baş barmaxlarını qavax-qavağa tutuy. Adətə görə qız vəkilinin barmağı aşağıda, oğlan vəkilinin isə üstdə oluy. Güc gəlif bir-birlərinin baş barmağını dala qatlıya bilən qalif gəlmiş hesaf olunuy. Adətə görə, çox zaman qız öyü basılmış olardı. Nikah mərasimi qutardıxdan soram hər iki vəkilə oğlan öyünin adamları xüsusi hörmət ediy, qonaxlıx verəydilər. Nikah aşı oluy. Onlar ilk ho ağsakkal vəkillərin qavağına qoyuluy".

Mətnin məzmunundan göründüyü kimi, oğlan tərəfinin ağsaqqal vəkilinin barmağının qız tərəfinin vəkilinin barmağından yuxarıda tutulması oğlan evinin üstün mövqeyini, sosial statusunu və güc göstəricisini simvolik şəkildə ifadə edir. Beləliklə, qeyd olunan mətn təkcə mərasim elementi deyil, həm də sosial strukturun, hakimiyyət bölgüsünün əsasən atada kişi sözünün kəsərinin və ənənəvi ailə modelinin semiotik ifadəsi kimi elmi baxımdan təhlil oluna bilər.

Ağsaqqal sözü bütün məqamlarda özünü göstərir. Belə ki, gənc ailələrə ev tikiləndə mütləq ilk daş qoyan, xeyir-dua verən evin, nəslin, yaxud elin ağsaqqalı olur. Öz kəlamı və hədiyyəsi ilə gəncləri sevindirir. *"Azərbaycan sosial-mədəni mühitində yaşlı, ağsaqqal, nurani şəxslər dərin hörmətlə yad edilməklə yanaşı, eyni zamanda bu kultun canlı örnəklərinə hazırkı çağda da rast gəlinməkdədir. Quruculuq aktı həyata keçirildikdə ata və babalardan, yaşlı nümayəndələrdən xeyir-duanın alınması əsas şərtlərdəndir* (11, s. 190). Qədimdə keçirilən toyların isə söyləyiciləri müxtəlif kəndlərin nümayəndələridir. Burada digər mühitlərdən fərqlənən bir sıra xüsusiyyətlər var. Məsələn, qədim açıq toylarda ağsaqqalların qurduğu düzəngahlarda cavanlar arasında yarışların keçirilməsi, deyişmələr (buna höcətləmələr deyilərdi), "Qızlariçi gəzmək", "Küt-küt" oyunu, oğlan evinin adamlarının qız evinə öz üstünlüklərini göstərmək, qız evinin adamlarını zarafatyana itələmələri, halvanın önəmli yer tutması, ərə gedən qızın ayağının özündən sonra kimə düşəcəyini yoxlamaq üçün gül əvəzinə konfet, noğul dolu xüsusi tikilmiş torbada cavanlara atılması, üzduvağı gününün nağara, zurna ilə keçirilməsi, mərhuma "40"-dan sonra "52" mərasiminin təşkil edilməsi, müxtəlif niyyətlərlə bağlı mövludların təşkili və s. Lənkəranın Aşağı Nüsvədi kəndindən olan Rzayeva Sübiyyə Heybət qızının dediyinə əsasən həmin kənddə ağsaqqal sözünə həmişə önəm verilir. Qızın razılığı alınandan sonra oğlan evi qız evinə nəslin ağsaqqaları ilə birgə "ağsaqqal" plova getmişdir. "*Qıza bizim kəndin adəti belədi ki, qızın həsi veriləndən sonra oğlan qız evinə ağsaqqal plov yeməyə gəlirlər. Qazanın ağsını nəslin ağsaqqalı açır nəmər verir. Soram qıza yığışırlar stolun ətrafına, plovu yiyirlər qızın üzüyünü verirlər gedirlər*" (9).

"Azərbaycan toylarında ağsaqqal kultuna münasibət əvvəl necə idi, bu gün necədir?" suallarına cavab tapmağa çalışacağıq. Ümumiyyətlə, əcdad sözünün ağırlığına, məsuliyyətinə gələrkən onu inamla demək mümkündür ki, əcdad

gələnəkləri sadiqlik məsuliyyətini insanlara aşılayan, bir xalqın varlığını isbat edən, əbədiliyini, soy-kökünü göstərən, adətlərini, ənənələrini tanıdan, böyüklərə hörmət aşılayan müqəddəs və köklü bir sözdür. Əcdad mərasimin gerçək aparıcı qüvvəsi kimi gözə görünməsə də, əslində, əsas sakral başlanğıcı və gücü simvolizə edir. Əcdad sözünün kəramətindən qorxan, çəkinən insanlar onları həmişə əziz tutmuş, onların ruhlarına ehtiram göstərmişlər.

Ağsaqqal sözünün kəsəri hər dövrdə önəmli olmuşdur. Toy mərasimi zamanı ağsaqqal adət-ənənələrin düzgün icrasına nəzarət edir. Mərasimdə hər hansı anlaşılmazlıq və ya gərginlik yarandıqda onun sözü həlledici olur. Ağsaqqalın təmkinli davranışı və müdrik münasibəti toyun sakit və ahəngdar keçməsinə şərait yaradır. Zaqatalanın saxurlar yaşayan Mamrux kəndində toydan 5 gün öncə kəndin ağsaqqallarının və mollasının iştirakı ilə kəbinkəsdiyə gəlirlər. Kəbin kəsilən zaman şirinlik halvası çalınıf hamıya payalanır. Şimal bölgəsində məşhur olan düyü halvasını bişirib paylamaq həm mərhumun "40"-da, həm də toy mərasimlərində həyata keçirilirdi. "Ay oğul, vaxtıikən havı bizim kəndə aylə quran cuvanlara xeyir-dua ediylər. İgitlərinin sağ olsun, ay oğul, ağsaqqaların ağbirçələrin iştirakı ilə qıza gümuş kəmər bağışlanıydı, ho kəmərdən sada olsun, inşallah" (7). Bundan əlavə, Zaqatalanın Qımır Bazar və Çobankol kəndlərində digər mühitlərdən fərqlənən bir sıra xüsusiyyətlər var. Məsələn, qədim açıq toylarda ağsaqqalların qurduğu düzəngahlarda cavanlar arasında yarışların keçirilməsi, deyişmələrin (höcətləmələr) olması oğlan evinin gücünü qız evinə göstərməsi ilə əlaqədardır. Burada başlıca simvol güc simvolu idi. Güc simvolu özündə birliyi yaradırdı. Şimal bölgəsində vaxtı ilə açıq səma altında açıq toylar keçirilərdi. Bu toylardan xəbər tutanlar gəlib evin və nəslin ağsaqqalına gözaydınlığı verərdilər. "*Qədim açıx toylarda ağsaqalların və cuvanların iştirakıyla düzəngah quruluy. Ağsaqqal sözü burada əsaslı idi. El-ovanın iyidləri arasında belə bir yarışma keçirilirdi. Ağsakkallar habu yarışmalara yaşıl çəmənlıxda döşənmiş xalıların üzərində bardaş quruf oturarax müşahidə ediy və yarışçılara qiymət verərdilər. Böyüh fırığa* soğan bağlayıf yekə bir qoz yaxud çinar ağacının ən hündür budaxlarından birinə möhkəm bağlayar, hansı iyid həmin soğanı tüfənglə vuruf yerə sala bilərdisə, dimax ki, günün qəhrəmanı da hodur. Ağsakkallar tərəfindən honu hədiyə gözdüyür. Hona bir sini halva verər və yaxud aşa qonax edərdilər. Havı danışdığım adət Zaqatalanın Qımır, Bazar, Çobankol, Suvagil, Göz-barax və başqa kəndlərində də vaxtıyla havı cürə olufdu (10, s.* 226). Heç kim ağsaqqalların verdiyi qərara qarşı çıxa bilməzdi. Elin ağsaqqalına inam əcdad ruhunun şad olmasına inamdan irəli gəlirdi. Əcdad kultuna daxil olan Ata amili, Ata kultu insanın ailəsinə, yuvasına, evinə bağlılığın əsas elementidir. Əcdad kultunda əsas xətti ata-oğul münasibətləri tutur. Burada bir tək Oğuz xaqanın oğlanlarını və nəsil davamçılarını nümunə göstərmək yetərlidir. "Oğuz xaqan" dastanında böyüklərə münasibət baxımından 2 məqama diqqət edək. Birincisi, Oğuz xaqan fəth etdikləri ərazilərdə oğlanların doğru-düzgün, ədalətli qanunlar verdikləri, atalarının qaydası ilə getdikləri üçün onları alqışlayır. Deyir ki, "Mənim sağlığımda belə bö-

yük və gərəkli işlər görüb adınızı bəlləndirməyiniz göstərir ki, mən öləndən sonra siz mənim yerimi tutmağa layiqsiniz" (3, s. 24).

Toyun ən yadda qalan anlarından biri də bu idi ki, toylar ağsaqqal xeyir-duası olmadan açılmazdı. Ağsaqqal bəy və gəlinə nəsihət və xeyir-dua verirdi. Bu nəsihətlər ailə sədaqəti, qarşılıqlı hörmət, səbir və məsuliyyət kimi dəyərləri təbliğ edir. Xeyir-dua isə yeni qurulan ailəyə mənəvi dayaq, xoş arzular və uğurlu gələcək diləyi kimi qəbul olunur.

Müasir dövrdə şəhər toylarında ağsaqqalın rolu qismən zəifləsə də, kənd yerlərində və ənənələrə bağlı ailələrdə hələ də böyük əhəmiyyət daşıyır. Ümumiyyətlə, ağsaqqal Azərbaycan toylarında keçmişlə bu günü birləşdirən, milli-mənəvi dəyərlərin yaşadılmasına xidmət edən mühüm simvol hesab olunur.

Toy məclisində hər hansı anlaşılmazlıq yaranarsa, ağsaqqal müdaxilə edərək belə deyə bilər:

"Toy evində dava-dalaş olmaz. Bu gün sevinc günüdür, hamımız bir ailə kimi davranmalıyıq.

Toyun sonunda ağsaqqal bəy və gəlinə üz tutaraq deyir:

"Ailə səbir üzərində qurular. Bir-birinizə hörmət edin, çətin gündə bir-birinizə dayaq olun. Evdə sevgi və anlayış əskik olmasın."

Ağsaqqal toy ritualının önündə duran, onun məsuliyyətini üzərinə götürəndir.

Ağsaqqal sakitləşdirən, tərəflər arasında sülh və ədalətli mövqeyini əks etdirən örnəkdir.

Ağsaqqal bəy və gəlinə nəsihət nümunəsidir.

Ağsaqqal həm də əcdad kultunun öyüd verən, yol göstərən və birləşdirən paradiqmasıdır.

Zaqatala bölgəsinin toy adətlərində ağsaqqalın sözü xüsusi çəkisi olan, hamı tərəfindən qəbul edilən konkret adət kimi qorunur. Burada "ağsaqqalın dedi" söz çox vaxt qanun kimi qəbul olunur və ona qarşı çıxmaq ayıb sayılır.

Azərbaycanın bir çox bölgələrində olduğu kimi, Zaqatala toylarında da ağsaqqalın sözü ilə bağlı konkret ənənə var, "Ağsaqqal xeyir-dua verməden toy başlanmaz" deyirlər. Adətə görə:

- Toy məclisinə toplaşan qonaqlar ağsaqqalın sözünü gözləyir;
- Ağsaqqal ayağa qalxıb toy sahibinə və gənclərə xitab edir;
- Onun "xeyir-dua verdim, toyunuz mübarək olsun" deməsindən sonra musiqi başlayır;
- Nəslin, yaxud elin ağsaqqalının izni olandan sonra qara zurna işə düşür, rəqsə icazə verilir.

Toy məclisinin ağsaqqalın izni və xeyir-duası ilə açılması təbii ki, ağsaqqalın mənəvi hakimiyyətini göstərir. Toy mərasiminin xeyir, sülh və birlik üzərində qurulmasını simvolizə edir, sosiumda hörmət və nizamı qoruyur. Eləcə də "toy evində dava olmaz" prinsipi məhz ağsaqqalın sözü ilə möhkəmlənir. Bu, təbii ki, ağsaqqalın tərbiyəvi və mənəvi roluna nümunədir. "Ağsaqqal səliqə-sahmanlı

olar, ağır oturar, ağır durar, davranışı, duruşu, ağayana yerişi, müdrikliyi, sadəliyi, səmimiliyi, sədaqətliliyi, fikrinin aydınlığı, dərin düşüncəsi ilə seçilər. Hazırcavab, az danışan, inamlı danışan, hikmət söyləyən, sözübütöv, əməlisaleh, zəhmətsevər, işgüzar, işbilən, gözü-könlü tox, təmənnasız, qəlbi təmiz, ürəyi təpərli, hünərli, arzusu geniş, sarsılmaz, el arasında başı yığnaqlı, qeyli-qallı, məclislərdə, mərasimlərdə başda oturan, məclis yaraşığı olar. Hamı onu dinləyər, hamı onu eşidər, hamı ondan öyrənər. El içindən çıxan ağsaqqal elin olar. Dar gündə, dar ayaqda xalqına yarar, xalqına yanar. Hər zaman, hər yerdə sülhə, əmin-amanlığa şamçıraq tutar, barışdırar, qanı su ilə yuyar, insanların ümid yeri, pənah yeri, məsləhət verəni, çarə qılanı, yol göstərəni, adət-ənənələrimizin, milli-mənəvi dəyərlərimizin daşıyıcısı, qoruyucusu, inkişaf etdirəni kimi (1, s. 78).

Maraqlıdır, bu gün Azərbaycanın bölgələrində əcdadlarımızın qoyduqları ənənələr necə yaşayır? Əgər yaşayırsa, hansı dəyişikliklərə məruz qalıb?

Qədim dastanlarımızdan gələn ənənə bu gün toy adətlərimizdə, inanclarımızda yaşayır. Bu gün bölgələrdə keçirilən toylarımızda böyük sözünə, göstərişinə, məsləhətinə hörmətin əlaməti olaraq toyun ağsaqqalı, vəkili olur və bütün toyun mərhələləri ardıcıl olaraq onun tapşırıqlarına əsasən həyata keçirilir. Ulu toyu idarə edən vəkil "Oğuz Xaqan" dastanındakı Oğuz xanın Ulu toy ritualında hansı statusa malik idisə, bölgələrimizdə keçirilən açıq və stol toylarındakı vəkil də həmin sakrallıq və toxunulmazlıq statusuna malikdir.

Bu gün əcdada münasibət Azərbaycan folklorunda, gənclər arasında, ümumiyyətlə, cəmiyyətimizdə iki formada özünü göstərir.

Folklorumuza nəzər saldıqda nağıllarımızdan, rəvayətlərdən dastanlarımıza kimi əcdada münasibət, böyüklərimizin ənənəsindən gələn məqamlar qorunur. Son illər ölkəmiz sürətlə Avropaya inteqrasiya etməsi ilə bir çox beynəlxalq dəyərləri də qəbul etmişdir. Ancaq bunların sayı nə qədər çox olarsa, bu, bizi sevindirməli deyil, əksinə, narahat etməlidir. Çünki biz bayağı dəyərlərlə deyil, milli gələnəklərimizlə var ola bilərik.

Əcdadlarımız bizə yaşayışımız, məişət tərzimiz üçün önəmli olan ənənələr miras qoymuşlar. Məsələn, "Koroğlu" dastanında Alı kişinin oğluna nəsihəti, atların bacarığını yoxlamaq üçün üç növ sınaqdan keçirilməsi ənənəsi bu gün atçılıq sahəsində tətbiq edilsə, yəqin ki, Qarabağ cinsləri kimi yüksək dəyərə malik at növlərini yetişdirə bilərik.

Xalqımız üçün ağsaqqal öyüdü hər zaman vacib və önəmli olmuşdur. T.Bünyadov qeyd etdiyi kimi, "Xalqımız vətənə sonsuz məhəbbət, torpağa bağlılıq, el-obaya sayğı, sevgi, ailəyə yüksək qayğısı ilə tanınır. Bu bəşəri keyfiyyətlər arasında ağsaqqallıq və ağbirçəklik institutu böyük məna və məzmun kəsb edir. Bu institut ibtidai icma quruluşundan başlayaraq zəmanəmizə qədər davam edir. Təlim-tərbiyə məktəbi, gör-götür dünyası, ibrətamizlik abidəsi olduğuna görə bu məsələyə də cilddə xüsusi yer ayrılması təbiidir" (1, s. 76-77).

Ağsaqqal kultu toyun başlanğıc mərhələsi olan ağız aramadan, elçilikdən başlamış son mərhələsi duvaqqapma, yaxud üzduva gününə kimi başlıca rola malik olur.

“Qarabağın Ağdam bölgəsində qızın ərə getməyə hazır olub-olmamasını yoxlamaq üçün maraqlı bir üsuldan istifadə olunurdu. Belə ki, ərə vermək istədikləri qızı papaqla vururdular, qız tərpənmədikdə onun ailə qurmağa hazır olduğu müəyyənləşirdi. Qeyd edək ki, bu “papaq atmanı” kəndin ağsaqqalı edirdi” (11, s.148)

Ağdam bölgəsində qızı bir dəfə elçi gəlməklə vermirdilər. Öncə qız evinin nə düşündüyünü anlamaq üçün “kəşfiyyatçı” göndərilirdi. Ağız aranandan sonra oğlan tərəfdən ana, xala və yaxud bacı qız tərəfdən ana, xala və ya bibi ilə söhbətləşirdi. Qız atasına məsələ açıldıqda o “baxarıq” – deyə vaxtı uzadırdı. Beləcə, bir müddət qaçdı-qovdu ilə davam edirdi. Buradan da aydın olur ki, ata bu məsələnin qızın əmisi, dayısı, ümumiyyətlə, nəslin ağsaqqalları ilə də məsləhətli şəkildə həllinə çalışırdı.

Bütün bölgələrdə ağsaqqalın iştirakı ilə “hə” cavabı alınır, verilir.

Qubadlı toylarında el-oba arasında nüfuzu olan bir şəxs toyun ağsaqqalı seçilirdi ki, toyun bütün məsuliyyətini də o öz üzərinə götürürdü və hətta oğlan atası ona tabe olmaq məcburiyyətində idi. Hikmət Quliyev araşdırmalarında qeyd edir ki, “Bir sözlə, ağsaqqal statusu cəmiyyətdə müxtəlif məsələlərin həllində aktuallaşan obrazdır: bunun əsasında Müdrik Qoca arxetipi dayanır. Lakin ağsaqqal özünün bütün metaforasını qocalıqdan götürsə də, o daha çox müəyyən bir status kimi anlaşılmalıdır. Belə ki, xalq arasında bütün yuxarıda sadaladığımız işlərin həyata keçirilməsinə rəhbərlik “ağsaqqallıq etmək” kimi də xarakterizə olunur. Bəzən isə “ağsaqqallıq edən” qoca deyil, daha gənc nəslin nümayəndəsi olur” (5, s. 9-10). El arasında yalnız yaşlı-başlı adama deyil, ağlı başında gəncə də müdrik idarəedici qabiliyyətinə görə ağsaqqal deyilir. Müəllifin vurğulamaq istədiyi məqam da məhz budur. El arasında hər saqqalı ağdan ağsaqqal olmaz ifadəsində məhz bununla əlaqədar yaranmışdır. Bütün bunlara baxmayaraq, bu gün xalqımızın öz adını uca tutan və sözünün kəsəri ilə tanınan ağsaqqallarımız çoxdur.

Bölgələrdə yaşayan adətlərimizə diqqət etsək ağsaqqala verilən dəyəri aydın görmək olar. Məsələn, ev tikilərkən, adətən, ağsaqqalın, ata və babaların xeyir-duası (sözü və ya hər hansısa “bəxşişi”) səbirsizliklə gözlənilir. Üçüncüsü, yeni ailələrin qurulması zamanı, adətən, elçiliyin və ümumiyyətlə, digər nəslin nümayəndələri ilə danışığın ağsaqqal statuslu şəxs tərəfindən həyata keçirilməsi. Bir sözlə, ağsaqqal statusu cəmiyyətdə müxtəlif məsələlərin həllində aktuallaşan obrazdır. Xatırlatmalıyıq ki, ağsaqqal özünün metaforik-simvolik anlamını qocalıqdan götürsə də, o daha çox müəyyən bir status kimi anlaşılmalıdır.

Toyun üçüncü günü də üzaçdı olurdu. Üzaçdıda da çox qohum-qardaş iştirak eliyirdilər. Gəlin qohum-qardaşa şirin çay verirdi. Səhər gəlinin 33 üzündən qaynata duvağı açır, qırağa qoyur, əlinə də xələt verir. Ata ölüfsə əmisi, ya böyük qardaş onu əvəz eliyir. Honnan sora gəlin həyətə çıxıy, gələn qonaxlara çay veriy.

Qohum-qardaşların içindən kim ho çayı içirsə, stəkanın içinə pul qoyur, gəlinə kömax eliyənnər pulu yığıf gəlinə veriylər. Hindi havı adət bizdə qorunuf saxlanıy. Honnan sora axşama kimi çalırdılar.Havırda bəyin oğurlanması adəti qorunuy. Adətə görə, bəyin dosları vəkildən bəxşiş aldıxdan sora honu məclisə gətiriylər. Əgər uzaxdan qız alınırsa, gəlini gətirən vaxtı adət ediliy (10, s. 32-33). Zaqatalanın Suvagil kəndində isə oğlan toyu günü böyüklərin iştirakı ilə qız oğlanın bacısı evinə badya aşı yeyilməyə gedilir. Bu ənənə də elin və nəslin şərəfinə düzənlənir.

Hər bir xalqın həyatında qədimlərdən gələn əlamətdar adətləri qoruyub saxlamaq, gələcək nəsillərə ötürmək kimi gözəl ənənəsi vardır. Tarixdə iz qoyan böyük xalqlar məhz həmin ənənələri ilə yada düşüb xatırlanırlar. Bəzən bir maraqlı ayinin, adətin, inancın tanıdılması kiçik bir etnosu belə daha güclü edir, özünə, gələcəyinə olan inamı daha da artırır.

Azərbaycan toylarında əcdad kultunun transformativ paradiqması olan ağsaqqalın yeri və rolu böyükdür. Maraqlıdır, bu gün ölkəmizdə əcdada münasibət hansı şəkildə özünü qoruyub saxlayır? Bu gün gənclərimiz toy, yas mərasimlərimizdə qədimlərdən gələn mental dəyərlərimizin bayağı dəyərlərlə əvəzləməsinə necə baxırlar? Onlar bu gün ata-babalarımızın yaşam tərzimiz üçün qoyduqları adətləri yaşatmağa qadirdirlərmi? Xalqımız tarixən ağsaqqal və ağbirçəklərin sözünə xüsusi hörmətlə yanaşmış, onların tövsiyə və qərarlarını sosial münasibətlərin tənzimlənməsində mühüm amil kimi qəbul etmişdir. 44 günlük Vətən müharibəsi zamanı Azərbaycan oğullarının nümayiş etdirdiyi şücaət, yüksək döyüş ruhu müxtəlif sosial-psixoloji və tarixi amillərlə bağlıdır. Bu amillər sırasında təxminən otuz ilə yaxın davam edən münaqişə şəraitində formalaşmış kollektiv yaddaş, işğal faktoru ilə bağlı ailə və cəmiyyət səviyyəsində ötürülən təcrübələr, eləcə də vətənpərvərlik tərbiyəsi mühüm rol oynamışdır. Nəsillər arasında ötürülən xatirələr, nənə və babaların, ataların müharibə ilə bağlı oğullarına söylədikləri gerçəklər gənc nəslin dünyagörüşünə təsir göstərmiş, onların vətənə bağlılıq hissini və milli həmrəylik duyğusunu daha da gücləndirmişdir. Ancaq bunlarla yanaşı, son illərdə bu sahədə müəyyən dəyişikliklər müşahidə olunmaqdadır. Gənclərin internet və virtual mühitdə daha çox vaxt keçirməsi, qloballaşmanın təsiri ilə fərqli mədəniyyət modelləri ilə intensiv təmasda olması ənənəvi adət-ənənələrə münasibətdə nisbi laqeydliyin və bəzən səthi yanaşmanın formalaşmasına səbəb olur. Bu proses nəsillərarası dəyər ötürülməsində müəyyən boşluqlar yarada, ailə və icma institutlarının əvvəlki tənzimləyici rolunu zəiflədə bilər. Bununla yanaşı, rəqəmsal mühit yalnız mənfi təsir göstərmir, düzgün istiqamətləndirildiyi təqdirdə milli-mənəvi dəyərlərin təbliği, folklor və mərasim ənənələrinin sənədləşdirilməsi və geniş auditoriyaya çatdırılması baxımından da mühüm imkanlar yaradır. Bu baxımdan əsas məsələ ənənə ilə müasirlik arasında balansın qorunması, gənc nəslin həm qlobal informasiya məkanında aktiv iştirakının təmin edilməsi, həm də milli-mədəni irsə bağlılığının gücləndirilməsidir. *Əcdad – Azərbaycan xalqının qan yaddaşıdır, torpağa, ulu vətənə, dövlətə, dövlətçiliyə, milli olan hər şeyə yük-*

*sək sevginin təzahürüdür. Əcdad mənim, sənin olanı özgələrə pay verməmək hissi, onu özününkü olaraq nəsildənnəslə, əsrdən-əsrə ötürmək ənənəsidir. Əcdad soy-kökə, nəslə, kökə, bir xalqın tarixi keçmişinə bağlı müqəddəs dəyərdir. Yaxşı olar ki, bugünkü nəsillər özündən əvvəlki ulu babalarını,7 arxa dönəni tanısın* (6, s. 179-186).

Türk xalqlarının əksəriyyətində babalarımızın qədimlərdən qoyduqları ənənələr yaşamaqda davam edir. Ortaq, qədim qəhrəmanlıq, bahadırlıq dastanlarından olan "Oğuz Xaqan" dastanına müraciət etdikdə görürük ki, orada da əcdad kultunun atalıq, dədəlik, babalıq, ərdəmlik, yol göstərənlik statusunu irəli çəkən, nəsihət verən Oğuz Xan elini hər zaman önə çəkən, dövlətçiliyin qədim ənənələrini qoruyan, inkişaf etdirən, ululardan gələn kosmik toy ritualını düzənləyən bir əcdad, ağsaqqal kimi yadda qalır. Oğuz Xanın düzənlədiyi Ulu toydakı nəsil düzümü də əcdadlara məxsus tərzdə baş verir və kosmik nizamı xatırladır. Harada mərasim var, orada əcdad sözü, əcdad öyüdü var. Göründüyü kimi, harada böyük sözü, böyük öyüdü, böyük nəfəsi duyulursa, o yerdə, o yurdda, o torpaqda əcdadlara bir bağlılıq ənənəsi var. Türk xalqları məhz tarix boyu yaşatdıqları adət-ənənələrdə əcdadlarımıza ehtiramla yanaşmışlar. Ağsaqqalın və ümumilikdə böyük nəslin sözünə olan inam və etimad cəmiyyət daxilində intizamın, həmrəyliyin və mənəvi birliyin möhkəmlənməsinə xidmət edən mühüm sosial-psixoloji amillərdən biridir. Məhz bu dəyər sisteminin qorunub saxlanılması və nəsillərarası hörmət prinsipinin davamlılığı 44 günlük Vətən müharibəsi dövründə də milli birliyin güclənməsinə və səfərbərlik ruhunun yüksəlməsinə təsir göstərən amillər sırasında qiymətləndirilə bilər.

Əcdad kultunun inanc və mərasim səviyyəsində gerçəkləşdiyini yazan folklorşünas alim Seyfəddin Rzasoy qeyd edir ki, *"İnanc tərəfi əcdad kultunun mifoloji şüurda, yəni dünya modelindəki səviyyəsini, mərasim tərəfi isə etnokosmik davranış səviyyəsini bildirir. Başqa sözlə, əcdad ruhuna inanıldığı kimi, onun ətrafında kult sistemi qurulur. Bu kult sistemi əcdad ruhuna inancı və gerçək həyatdakı insanların əcdadlarla əlaqəsini təmin edən ritual rejimini (yəni mərasimi) nəzərdə tutur. İnsan belə hesab edir ki, ölmüş valideynin ruhu o biri dünyaya adlayaraq yaşamını davam etdirir*" (8, s. 265). Digər tərəfdən "kult" sözünün mahiyyətinə diqqət etsək, bu sözün pərəstişlə, tapınma, inamla bağlıdır.

Müdriklərimiz doğru buyurub: Ağsaqqal olan yerdə urvat, ağbirçək olan yerdə mürvət olar. Öz tarixinə, öz keçmişinə laqeyd baxmaq, ağsaqqal öyüdündən, ağsaqqal nəsihətindən yan qaçmaq böyük səhvə yol vermək deməkdir. Qədimdən bu günədək böyük sözünə, ata nəsihətinə, ağsaqqal öyüdünə mənəvi ehtiyacımız olmuşdur. Xalqımızda olan bu xüsusiyyət, təbii ki, el ağsaqqallarına olan hörmətdən irəli gəlmişdir. Hər yerdə el ağsaqqallarına ehtiyac dünən də olmuş, bu gün də var, sabah da olacaqdır. Fikrimizcə, xalq arasında uca tutulan ağsaqqallar ömürlərini Vətənə, xalqa, elinə-obasına həsr edən ölməzlərdir. Beləliklə, ağsaqqallıq institutu Azərbaycan cəmiyyətində sosial-mənəvi nizamın qorunması, nəsil-

lərarası əlaqənin davamlılığı və milli-mədəni dəyərlərin ötürülməsi baxımından mühüm əhəmiyyətə malikdir.

## ƏDƏBİYYAT


1. Bünyadov T. Azərbaycan etnoqrafiyası. Üç cilddə. III cild. Bakı, "Şərq-Qərb", 2007, 568 s.
2. Cəmşidov Ş. "Kitabi-Dədə Qorqud". Bakı: Elm, 1977, 175 s.
3. Fəzlullah Rəşidəddin. Oğuznamə. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı. 72 s.
4. Kitabi-Dədə Qorqud. Bakı, Azərnəşr, 1962,176 s.
5. Quliyev H. Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. Bakı, 2015, 27 s.
6. Mənsimova Zümrüd. Azərbaycan folklorunda əcdad kultu AMEA Filologiya və sənətşünaslıq, 2024, № 1 ISSN 2663-4368 s-179-186)
7. Murtuzəliyeva Bağdagül Məhəmməd qızı, Zaqatala rayonu Qımır kəndi, 1946-cı il
8. Rzasoy Seyfəddin. II Uluslararası Mersin Konfransı, BİLDİRİ TAM METİNLERİ KİTABI, KİTAP 2, Mer Ak Yayınları 2019 – Mersin, 381.s
9. Rzayeva Sübiyyə Heybət qızı. Lənkəranın Nüvədi kəndi,1936-ci il
10. Zaqatala folklor örnəkləri. I cild. Bakı: "Sabah", 2017, 504 s.
11. Zəngəzur folkloru: milli-mədəni düşüncə və çağdaş elmi yanaşmalar (elmi araşdırmalar toplusu). Bakı: Elm, 2022, 272 s.


*Redaksiyaya daxilolma tarixi: İlkin variant: 13.05.2026*
*Son variant: 15.05.2026*